*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 407-412*

# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2025.3.407

**QULİYEVA PƏRVANƏ ELMAR QIZI**
**Gəncə Dövlət Universiteti**
pervane.quliyeva73@gmail.com

## SARI AŞIĞIN CINASLI BAYATILARI

**Açar sözlər:** ədəbiyyat, sənətkar, xüsusiyyət, yaradıcılıq, aşıq, bayatı, məzmun, janr, usta.
**Ключевые слова:** литература, художник, особенность, творчество, любовь, черствость, содержание, жанр, мастер.
**Keywords:** literature, artist, characteristic, creativity, ashug, bayati, content, genre, master.

XVII əsrin nəhəng simalarından olan Sarı Aşığın bayatı yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Sarı Aşıqdan əvvəl və sonra yaşayıb – yaratmış bayatı yaradıcılarından heç biri onun fəth etdiyi zirvəyə yüksələ bilməmişdir. Sarı Aşıq uzun və mürəkkəb bir yaradıcılıq yolu keçmişdir . Sarı Aşığın yaradıcılığı olduqca zəngin və çoxcəhətlidir. Onun yaradıcılığına ənənəvi bayatılar, bağlama bayatılar, cinaslı bayatılar, bayatı – deyişmələr, bayatı – rəvayətlər, dastan və hekayələr daxildir. Biz bu yazıda böyük bayatı ustasının yalnız cinaslı bayatılarından danışmaq arzusundayıq.

Sarı Aşığın yaratdığı cinaslı bayatılar onun qeyri – adi istedada malik bir sənətkar olduğunu təsdiq etməkdədir. Onun cinaslı bayatıları forma və məzmun gözəlliyi ilə seçilir. Bunlardan biri digərini üstələyə bilmir, əksinə, forma məzmununu , məzmun da formanı tamamlayır, onu bitkinləşdirir.[1,8]

Tədqiqatçılar həmişə, bir qayda olaraq, Sarı Aşığın bayatılarını Yaxşı ilə əlaqələndirməyə çalışırlar. Sarı Aşıq öz yatağına sığmayan bir çaydır .

Aşığın cinaslı bayatıları özünün yaratdığı yaddaqalan cinas lövhələri ilə seçilir. Məsələn, göz yaşının axıb sel, göl əmələ gətirməsini hələ Sarı Aşıqdan əvvəl də çoxları deyib, amma göz yaşından əmələ gələn göldə ördəyin , qazın binə bağlaması, üzməsi lövhəsi məhz Sarı Aşığa məxsusdur. Bu onun şair təxəyyülünün kəşfidir:

Aşıq, qaz binə bağlar,
Meylin Qəzbinə bağlar.
Gözüm yaşı göl olar,
Ördək, qaz binə bağlar.[2,83]

Əgər Sarı Aşıq "Gözüm yaşı göl olar, ördək, qaz binə bağlar" – deyirsə, XIX əsrin qadın aşığı Maralyanlı Pəri "Oynaşı" qoşmasında Sarı Aşığın bənzətmələrindən, təşbehlərindən heç də geri qalmayan ifadələr seçib elə bir bədii lövhə yaradır ki, insan şair – aşığın istedadına, deyim tərzinə heyran qalır. Misal gətirdiyimiz aşağıdakı beyt Aşıq Pəri təfəkkürünün poetik kəşfidir:

Mən nə deyim gözüm yaşı əlindən,
Üzüşür sonalar, göllər oynaşı.

Sarı Aşığın Azərbaycan ədəbiyyatındakı rol və mövqeyini yalnız XIX əsr aşıq şeirimizin görkəmli nümayəndəsi Aşıq Ələsgərlə müqayisə etmək mümkündür. Sarı Aşıq Azərbaycan ədəbiyyatının bayatı, Aşıq Ələsgər isə qoşma qanadıdır. Neçə - neçə sənətkar Sarı Aşıqdan sonra sənət meydanına gəlmiş Xəstə Qası, M.V.Vidadi , M,P,Vaqif, Kazım ağa Salik, Q.Zakir, Aşıq Həmayıl, Aşıq Pəri, Məhəmməd bəy Aşiq, Aşıq Bəsti və başqaları onun bayatı yaradıcılığına xüsusi maraq göstərmişlər. Yaxşıya olan ülvi məhəbbətini və istəyini yüksək qiymətləndirmişlər.

Sarı Aşıq özü də bunu qabaqcadan bilirdi ki, "eşqdən cünun olan"lar dərdini onda tapacaqlar. Çünki o, dərməndir, dərdi də dərmandə deyərlər :

Mən aşıq, dərdi məndə,
De dərdin, dərdiməndə.
Eşqdən cünun olanın,
Tapılar dərdi məndə.

Sarı Aşığın qəlbini dərindən oxuyan, duyan Q.b.Zakir bir bayatısında belə deyir :

Gəldi bir yaxşı suvar,
Gir bağa, yaxşı suvar.
Aləmin malı, mülkü,
Aşiqin Yaxşısı var.

Bayatı Q.Zakirə məxsus olsa da , burada Sarı aşığın nəfəsi, amalı yaşayır. "Aləmin malı, mülkü var". Amma Sarı aşığın bircə Yaxşısı.

Q.b.Zakir də bu bayatıda Sarı Aşığın öz eşqindən dönməzliyini, yar yolunda mətinliyini ifadə etmişdir . Məhəmməd bəy Aşiq də Sarı Aşığı Yaxşısız təsəvvürünə gətirə bilmir. Sarı Aşıqla Yaxşının eşq macərası sonralardillər əzbəri olmuş, çoxları bu eşqə həsəd aparmışlar. Çoxları özünü aşığa, sevgilisini də Yaxşıya bənzətmişlər. Bunlardan biri də Məhəmməd bəy Aşiqdir :

Qarşıda yaxşı Pəri,
Tərlanın yaxşı pəri.
Mən aşiqdən yaxşıyam,
Yaxşıdan yaxşı, Pəri.

Sarı Aşığın yaratdığı qafiyələr öz dövründə və özündən sonrakı aşıq ədəbiyyatımızda təcnis yaradıcılığının inkişafinda mühüm rol oynamışdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 407-412*

"Məlumdur ki, Sarı Aşıq bayatı ustasıdır. Bu saat onun adı ilə bağlı olan qəbir də, gümbəz də zaman keçdikcə yer üzündən silinib gedəcək, lakin xalq şeirimizin ən gözəl inciləri olan Sarı Aşıq bayatıları ürəklərdən silinməyəcək, dillərdən düşməyəcəkdir." [3,196]

Onun ilhamı kükrədikcə , daşdıqca sahilləri basmış, yeni yaşıl zolaqlar yaratmışdır. Sarı Aşığın "Aşiq və Yaxşı" adlı bayatılı dastanından əlavə, onun çoxsaylı bayatılı rəvayətləri və hekayələri, bayatılı deyişmələri, bağlama bayatıları, hətta cinaslı bayatıları vardır. Sarı Aşığın müşahidə qabiliyyəti çox güclüdür. O, təkcə özünü yox, bütün məhəbbət aşiqlərini düşünür. Aşiqləri bircə mühit sıxmır, aşiqin biri həssas, o biri laqeyd olanda da eşqin mənasını duyan və onu yüksək qiymətləndirən insan vicdan əzabı çəkir. Sarı Aşıq belələrinin də dərdinə şərik olur. Bir gün Sarı Aşıq harasa gedirmiş. Görür ki, bir oğlanla bir qız bir yerdədirlər. Oğlan laqeyd bir insandır, ağacla qanqal budayıb yeyir, qız isə həsrətlə ona baxır. Qız gözləyir ki, bu, nə zamansa dönüb onunla söhbət edəcək, eşqinə cavab verəcək, yanan ürəyinə su səpəcək. Qızın bu təlaşı, oğlanın laqeydliyi həssas qəlbli aşığı yerindən tərpədir, qəlbini riqqətə gətirir. Həmin təsir nəticəsində aşağıdakı yurdlu – cinaslı bayatısı yaranır :

Mən aşıq, bu damaqda
Bu kefdə, bu damaqda ,
Maya nər sevdasında,
Nər qanqal budamaqda.

Sarı Aşıq öz halına da yanır ki, gör mən nə çəkirəm, nə kefdə, nə damaqdayam. Öz sevgilisi ilə bir yerdə olan nə kefdə, damaqdadır; Nər sevdasında olan mayanı unudub, qanqal budayı yeyir. Aşığı incidən bu təzaddır; biri yar həsrətindədir, o birisi bu eşqə layiq deyil. Çünki biganədir. Daha doğrusu qanqal budayandır , qanqal müştərisidir. Eşqə layiq adamlar isə Sarı Aşıq kimi hicran əzabı çəkir, yar həsrəti onu boğub öldürür. Yeri gəlmişkən, qeyd edək ki, Sarı Aşığın cinaslı bayatılarını cüt – cüt, qoşa – qoşa yaratması, eyni fikri bir neçə variantda verməsi təkrar təsiri bağışlamır, çəhdudluq əlaməti kimi meydana çıxmır. Əksinə, cinaslı əkiz bayatılar ustad şair – aşığın nə qədər zəngin və geniş yaradıcı təxəyyülə, tükənmək bilməyən bədii – poetik imkanlara malik olduğunu göstərir. Sarı Aşığın cinaslı bayatıları yaratdığı canlı lövhələri və rəngarəng yurdları ilə seçilir. Onun canlı lövhələr, obrazlar yaradan bayatılarının yurdları da özləri qədər gözəl və təsirli olur. Belə rəvayət edirlər ki, Sarı Aşığın sevgilisi Yaxşı və onun bacısı Günəş gəzə - gəzə gəlib onu bostanın yanında tapırlar. Aşıq duyur ki, bacılar arasında bəhsləşmə, mərcləşmə var; bunların hansı daha gözəldir ? Bunu qabaqcadan duyan Sarı Aşıq diqqətlə baxır ki, Günəş saçını səliqə ilə darayıb düzəldibdir. Amma Yaxşının saçı dağınıqdır. Sarı Aşıq eyhamla deyir : Mən aşiqəm, tağ ayır,
Tağ içindən tağ ayır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 407-412*

Yar yanına gələndə,
Dara zülfün, tağ ayır.

Yaxşı eyhamı başa düşür, acıqla qovunun tağını ayağı ilə əzir. Sarı Aşıq deyir :

Mən aşiqəm, tağı yar,
Bostanı yar, tağı yar.
Şamama sənə qurban,
Ayaqlama tağı yar.[4,88]

Sarı Aşıq gələcək təcnis binalarını qurmaq üçün cinasdan tağ daşları yonmuş və qızıl kərpiclər kəsmişdir. Cinaslar qızıl söz külçəsi ilə yoğrulmuş və ondan təcnis saraylarını ucaltmaq üçün qızıl kərpiclər düzəldilmişdir. Sarı Aşıq, Xəstə Qasım və Ələsgər kimi sənətkarlar bu qızıl kərpicləri böyük ustalıqla , memar kimi üst – üstə qoyaraq möhtəşəm təcnis sarayları qurmuşlar. Xəstə Qasımın və Aşıq Ələsgərin möhtəşəm təcnis binalarına, təcnis saraylarına baxanda heyrətə gəlirsən, duyğulanırsan, qürur hissi keçirirsən. Çox sənətkarlar təcnis saraylarının qapısını açıb oraya daxil ola bilməmiş, yalnız bu sarayın başına dolanmışlar. Zaman bu sarayların sonralar qıfılına açar salmağı bacaran tək–tək istedadlı sənətkarlar yetişmişdir. Bunların sırasında Zodlu Abdullanın və Növrəs İmanın xüsusi mövqeləri və bacarıqları olmuşdur. Hər sahədə, o cümlədən, poeziyada yenilik yaratmaq, qabağa getmək, hər şeydən əvvəl, aşığın istedadından və bacarığından asılıdır.

**Ədəbiyyat:**

1.S. Paşayev "Sarı Aşığın cinaslı bayatıları", "Azərbaycan müəllimi" qəzeti,10 avqust 1983-cü il

2. S.P.Pirsultanlı, "Azərbaycan folkloruna dair tədqiqlər", Gəncə,"Pirsultan" 2006, səh.251-252.

3. S.P.Pirsultanlı. Ozan – aşıq yaradıcılığına dair araşdırmalar, I cild, "Pirsultan" n-tı, 2002.

4. S.P.Pirsultanlı. Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi, Gəncə, 2010.

**Xülasə**

**SARI AŞIĞIN CINASLI BAYATILARI**

Sarı Aşıq gələcək təcnis binalarını qurmaq üçün cinasdan tağ daşları yonmuş və qızıl kərpiclər kəsmişdir. Cinaslar qızıl söz külçəsi ilə yoğrulmuş və ondan təcnis saraylarını ucaltmaq üçün qızıl kərpiclər düzəldilmişdir. Sarı Aşıq, Xəstə Qasım və Ələsgər kimi sənətkarlar bu qızıl kərpicləri böyük ustalıqla, memar kimi üst–üstə qoyaraq möhtəşəm təcnis sarayları qurmuşlar. Xəstə Qasımın və Aşıq Ələsgərin möhtəşəm təcnis binalarına, təcnis saraylarına baxanda heyrətə gəlirsən, duyğulanırsan, qürur hissi keçirirsən. Çox sənətkarlar təcnis saraylarının qapısını açıb oraya daxil ola bilməmiş, yalnız bu sarayın başına dolanmışlar.

Zaman bu sarayların sonralar qıfılına açar salmağı bacaran tək–tək istedadlı sənətkarlar yetişmişdir.Azərbaycan xalq bayatılarının inkişafı tarixində, bu janrın poetik imkanlarının açılmasında, ədəbi növlər içərisində onun misilsiz şöhrət qazanmasında Sarı Aşığın xidmətləri böyükdür. O, özünün yaradıcılığı timsalında sübut etmişdir ki, yeddi hecalı, dörd misralı bayatıda böyük fikirlər, hisslər ifadə etmək, yaddaqalan bədii lövhələr yaratmaq mümkündür.

**Summary**

**Hd.tch.P.E.Quliyeva**

**SARI ASHUG'S PARONYMIC BAYATIS**

Sarı Ashug carved the keystones of jinas (paronomasia) and shaped golden bricks to construct the future structures of tajnis poetry. These jinas were molded with golden words and transformed into golden bricks to erect the majestic palaces of tajnis. Master poets like Sarı Ashug, Khasta Gasım, and Ashug Alasgar skillfully placed these golden bricks together, like architects, to build grand tajnis palaces.

When you look at the magnificent tajnis buildings and palaces of Khasta Gasım and Ashug Alasgar, you are filled with admiration, emotion, and pride. Many poets have tried to enter these tajnis palaces but failed to unlock their doors, merely wandering around them. However, time has produced a few exceptionally talented poets who have found the key to these poetic treasures. Sarı Ashug played a significant role in the development of Azerbaijani bayatis, expanding their poetic potential and elevating this genre to an unparalleled level of literary fame. Through his creativity, he demonstrated that deep thoughts and emotions could be expressed within the simple structure of a bayati, which consists of four lines and seven syllables, creating unforgettable poetic imagery.

**Резюме**

**Ст.пр.П.Е.Кулиева**

**ПАРОНОМАСТИЧЕСКИЕ БАЯТЫ САРЫ АШУГА**

Сары Ашуг высек из джинаса (омонимическая игра слов) арочные камни и вырезал золотые кирпичи, чтобы построить будущие здания техники теджниса. Эти джинасы были замешаны на золотых слитках слов и превращены в золотые кирпичи для возведения дворцов теджниса. Такие мастера, как Сары Ашуг, Хаста Касым и Ашуг Алескер**,** сложили эти золотые кирпичи с великим мастерством, словно архитекторы, создавая величественные дворцы теджниса. Обратив внимание на грандиозные

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 407-412*

поэтические постройки Хаста Касыма и Ашуга Алескера, можно только поражаться, испытывать волнение и гордость. Многие поэты не смогли открыть двери этих дворцов и войти внутрь, они лишь кружили вокруг них. Однако время породило редких талантливых мастеров, сумевших подобрать ключ к этим замкам. В истории развития азербайджанских народных баяты, в раскрытии поэтических возможностей этого жанра и в его приобретении беспрецедентной литературной славы велика заслуга Сары Ашуга. Он своим творчеством доказал, что в семисложном, четырехстрочном баяты можно выразить глубокие мысли, чувства и создать незабываемые художественные образы.

**Rəyçi: Axundova Nəzmiyə M.q.**